# Veteranların qalib Azərbaycanda ilk yubileyi

**Bu il Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının 35 illik yubileyidir. Qurumun sədr müavini, hərbi-siyasi ekspert, polkovnik Cəlil Xəlilovla söhbətimizdə veteranlar təşkilatının keçdiyi 35 illik yola nəzər salmağa çalışdıq.**





**– Cəlil müəllim, siz bu təşkilatın rəhbərliyində təmsil olunursunuz. Qurumun ötən müddətdə fəaliyyətini necə dəyərləndirirsiniz?**

– Təbii ki, 35 il bir təşkilat üçün heç də az müddət deyil. Biz qürur duyuruq ki, ulu öndər Heydər Əliyevin xeyir-duası ilə yaradılan bu qurum 35 ildir ki, əsl veteran evi, veteran ocağı kimi fəaliyyət göstərə bilib. Veteranların, o cümlədən xalqımızın, dövlətimizin ona olan ümidlərini doğruldub. Ötən müddət ərzində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı sadəcə ölkə daxilində deyil, respublikamızın hüdudlarından kənarda onlarca böyük layihələr həyata keçirmiş, Azərbaycan veteranlarının dünya veteranlar hərəkatında öz dəsti-xətti ilə seçilməsini təmin etmişdir. Təbii ki, bütün bunlar öncə ulu öndər Heydər Əliyevin və sonra Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəstəyi və qayğısı sayəsində mümkün olub. Hesab edirəm ki, təşkilatımızın 35 illik fəaliyyəti qənaətbəxşdir və tarixi uğurlarla yadda qalıb.

***– Ölkəmizdə veteranlar, müharibə əlilləri və şəhid ailələri ilə bağlı çoxlu sayda qeyri-hökumət təşkilatı var. Fəaliyyət istiqamətinizdə hansı fərqli xüsusiyyətləri qeyd edə bilərsiniz?***

– Təşkilatımızın özünəməxsus xüsusiyyətlərindən biri onun özündə sadəcə müharibə veteranlarını deyil, həm də əmək və Silahlı Qüvvələr veteranlarını əhatə etməsidir. Bizim "veteran evimizdə" demək olar ki, bütün kateqoriyadan olan veteranlar toplanıb. Müharibə veteranları arasında İkinci Dünya, Əfqanıstan, Birinci və İkinci Qarabağ müharibələrində, eyni zamanda, 2016-cı ilin Aprel döyüşlərində, habelə, müxtəlif məhəlli müharibələrdə iştirak edən çoxsaylı veteranlar var.

Digər təşkilatlardan fərqimiz fəaliyyətimizin bütün respublikanı əhatə etməsidir. Bu gün ölkəmizin, demək olar ki, bütün rayonlarında yerli təşkilatlarımız var. Onların hər biri ofislə təmin edilib və yerlərdəki veteranlarla aktiv iş aparırlar. Bölgələrdəki veteranların qayğı və problemlərinin öyrənilməsi, onların təşkilatlanması, gənclər arasında vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi prosesində veteranların iştirakı təmin edilir.

Təşkilatımız üçün xarakterik olan mühüm xüsusiyyətlərdən biri də onun beynəlxalq müstəvidə uğurlu fəaliyyət göstərməsi, geniş beynəlxalq əməkdaşlıq əlaqələri qurmasıdır. Bu gün təşkilatımız dünyanın bir sıra ölkələrinin veteranları, o cümlədən beynəlxalq veteran təşkilatları ilə geniş əlaqələr qurub. Bu da dünya veteranlar hərəkatında uğurla təmsil olunmağımızı, o cümlədən Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmağımızı təmin edir.

***– Cəlil müəllim, nəsillər arasında bağlılığın, mənəvi birliyin güclü olması, həm cəmiyyətin birliyi, həm də milli tarixi yaddaşın yaşadılması baxımından vacib hesab edilir. Təşkilat tərəfindən nəsillər arasında bu bağların gücləndirilməsi istiqamətində hansı addımlar atılıb?***

– Yaşlı nəsillə, o cümlədən veteranlarla gənclər arasında əlaqələrin güclənməsi, nəsillər arasında mənəvi bağların möhkəmlənməsi hər zaman təşkilatımızın diqqətdə saxladığı mühüm məsələlərdən biri olub. Təkcə bir faktı qeyd edim ki, 2021-ci il oktyabrın 1-də Bakı Konqres Mərkəzində "Nəsillərin görüşü" adlı böyük konfrans təşkil etdik. Həmin konfransda həm gənclər, həm də bütün kateqoriyadan olan veteranlar iştirak edirdi. Bundan başqa respublikamızın bir sıra bölgələrində böyük maraqla qarşılanan silsilə konfranslar həyata keçirilib. 2022-ci il martın 9-da Şirvanda, aprelin 15-də Şəkidə, 22-də Qubada və digər rayonlarda təşkil edilən "Nəsillərin görüşü" adlı zona konfranslarında veteranların, gənclərin, şəhər ziyalılarının onlarca nümayəndəsi çıxış edib, aktual məsələlər ətrafında açıq diskussiyalar keçirilib.

Onu da qeyd edim ki, təşkilatımızla Azərbaycan Ağsaqqalalr Şurası arasında sıx əməkdaşlıq mövcuddur. Məqsəd daha dolğun, vətənpərvər, mənəvi dəyərlərə dərindən bağlı olan gəncliyin formalaşmasına töhfə verməkdir. Bu məqsədlə 2022-ci il iyulun 8-də Beynəlxalq Muğam Mərkəzində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı ilə Azərbaycan Ağsaqqallar Şurasının birgə təşkilatçılığı ilə əməkdaşlıq forumu keçirildi. Avqustun 22-də iki qurum arasında 2022–2024-cü illərdə birgə fəaliyyət barədə əməkdaşlıq müqaviləsi imzalandı.

Nəsillər arasında təmasların artırılması, veteranlarımızın təcrübəsindən, bilik və bacarığından gənclərin yararlanmasının təmin olunması bundan sonra da diqqətdə saxlanılacaq, bu istiqamətdə bütün gərəkli addımlar atılacaqdır.

***– Təşkilatın Vətən müharibəsi və postmüharibə dönəmindəki fəaliyyəti nə ilə yaddaqalan oldu?***

– Vətən müharibəsi Azərbaycanın müstəqillik tarixində, o cümlədən hərb tariximizdə yeni səhifə açdı. Təbii ki, müharibə bütün qurumlar və təşkilatlar, eləcə də fərdlər qarşısında yeni vəzifələr qoydu. Təşkilat olaraq həmin vaxt qarşımızda duran ən başlıca vəzifə Ali Baş Komandanın ətrafında veteranların sıx birləşməsinə təkan vermək, dövlətimizə, ordumuza dəstək nümayiş etdirmək, düşmənin dezinformasiyalarını ifşa etmək idi. Bu məqsədlə də beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri haqqında daha dolğun məlumat əldə etməsinə nail olmaq üçün təşkilat informasiya müstəvisində geniş fəaliyyət göstərərək, cəmiyyətdə böyük təbliğat işi apardı, döyüşən orduya, o cümlədən şəhid və qazi ailələrinə dəstək kampaniyalarında yaxından iştirak etdi. Qələbədən sonra yüzlərlə müharibə iştirakçısı təşkilata üzv oldu, keçirilən tədbirlərdə fəal iştirak etdilər.

Postmüharibə dönəmində Ermənistanın terror və təxribatçılıq siyasətinə qarşı fəal mübarizə aparmışıq. 2021-ci il iyunun 4-də Ermənistanın mina terroru, 2022-ci il sentyabrın 13-də isə 12 sentyabrda törədilən erməni təxribatı ilə bağlı müvafiq bəyanatlarla çıxış etmişik. Bununla dünya veteranlarının, beynəlxalq təşkilatların diqqətini erməni vəhşiliklərinə cəlb edə bilmişik. Həmin bəyanat xarici dillərə tərcümə edilərək müxtəlif beynəlxalq təşkilatlara, diplomatik korpuslara göndərilmişdir.

Təşkilatımız bu gün də erməni yalanlarına, dezinformasiyalara qarşı mübarizə aparır və bu mübarizədə veteranların bilik və bacarığından, təcrübəsindən uğurla istifadə edir. 35 illik yubileyimizi qalib Azərbaycanın veteranları olaraq keçirməkdən şərəf duyuruq.

***– Cənab polkovnik, yaxın gələcək üçün hansı layihələr və yeniliklər haqqında düşünürsünüz?***

– Bu il Prezident İlham Əliyevin sərəncamı ilə "Şuşa ili" elan edilib. Biz veteranlarla birlikdə mədəniyyət paytaxtımıza səfər etdik, Şuşa, onun tarixi, mədəniyyəti, ermənilərin törətdiyi vəhşiliklər haqqında həm yerli, həm də xarici mediaya açıqlamalar verdik. İlin sonuna kimi Şuşanın təbliği, zəngin mədəniyyətinin dünyaya tanıdılması istiqamətində səylərimizi davam etdirəcəyik.

Gələn il isə xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi qeyd ediləcək və il dövlət başçısının sərəncamı ilə "Heydər Əliyev ili" elan olunub. Bu müstəvidə də bir sıra layihələr həyata keçirməyi düşünürük. Məqsəd ulu öndərin ideyalarını gənc və gələcək nəslə çatdırmaq, onların ümummilli liderin xalqımız və dövlətimiz qarşısındakı tarixi xidmətləri haqqında daha dolğun təsəvvür əldə etmələrinə nail olmaqdır.

Veteranları düşündürən, onları narahat edən problemlərin müəyyən edilərək əlaqədar dövlət orqanlarının diqqətinə çatdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, həm Birinci Qarabağ müharibəsində, həm də 44 günlük şanlı Vətən müharibəsində qəhrəmanlıq göstərən hərbçilərimizin, həlak olan şəhidlərimizin döyüş yolunun təbliği istiqamətində səylərimizi davam etdirəcəyik. Ümid edirəm ki, 2023-cü ildə də veteranlarımız cəmiyyətin ictimai həyatında yaxından iştirak edəcək, dövlətimizin inkişafı, respublikamızın çiçəklənməsi üçün əllərindən gələni əsirgəməyəcəklər.

**Söhbəti hazırladı:**
**Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"**